# "Müəllimliyim ilə önə çıxmaq istəmişəm"

Valeh Əsgərov isə sadəcə müəllimdir. Artıq 44 ildir ki, ən böyük vəzifə budur onun üçün. Hazırda Gədəbəy şəhər Milli Qəhrəman İlham Əliyev adına 1 nömrəli tam orta məktəbin coğrafiya müəllimidir. Ona qədər isə Gədəbəyin Şəkərbəy və Daşbulaq kəndlərində müəllimlik edib. 2006-cı ildə "Tərəqqi" medalına layiq görülüb. 2019-cu ildən Əməkdar müəllimdir.

**Aktyor olacaqdı...**

Hazırda işlədiyi məktəbin şagirdi olub Valeh müəllim: "O vaxt Krupskayanın adını daşıyırdı məktəbimiz. "Nəsimi" filminin ekranlara çıxdığı illər idi. Filmin təsiri altına düşmüşdüm, Rasim Balayevə heyran idim. Onun kimi aktyor olmaq istəyirdim mən də".

**Ata arzusu, müəllimlik yolu...**

Amma ixtisas seçiminə atası təsir göstərib: "Orta təhsilimi tamamlayıb Bakı Dövlət Universitetinin geoloji coğrafiya fakültəsinə qəbul olundum və atamın təkidi ilə müəllim oldum. Atam mühasib idi və məni müəllim kimi görürdü. Onun arzusunu yerinə yetirərək müəllim oldum, amma qısa müddətdə peşəmi sevdim".

**O da ədəbiyyatla coğrafiyanı birləşdirib...**

Fənnini bir az ədəbiyyat, bir az riyaziyyat "qataraq" tədris edib: "Ən çox da ədəbiyyatla əlaqə yaradıram. Çünki ədəbiyyatı sevirəm".

Şagirdləri müəllimlərinin inteqrativ dərsini çox sevib və coğrafiyaya maraqları artıb: "Elə son tədris ilində coğrafiya fənnindən şagirdim respublika fənn olimpiadasında qızıl medal aldı. Olimpiadaya qatılan və son mərhələyədək gedən şagirdlərim çox olub indiyədək. Amma medala layiq görülən ilk dəfə oldu".

**Əməkdar müəllim oldu**

Olimpiadada ilk uğuru olsa da, Valeh müəllimin şagirdləri qəbul imtahanlarında əldə etdikləri nəticələri ilə hər zaman fərqləniblər: "2006-cı ildə II ixtisas qrupu üzrə hazırlaşan şagirdim 647 bal toplayaraq ali məktəbə qəbul olundu. Həmin il ali məktəblərə qəbul imtahanlarında iştirak etmiş bütün şagirdlərim coğrafiyadan yaxşı nəticələr göstərmişdi. Elə bu nəticə karyerama təsir etdi və "Tərəqqi" medalına layiq görüldüm".

Valeh Əsgərov 2019-cu ildən Əməkdar müəllimdir.

**Müəllimlərinə minnətdardır**

Şagirdlərinin nəticələri ilə öyünməyə üstünlük verən Valeh Əsgərov bu illər ərzində vəzifə şanslarının olmasından da danışıb: "Göz önündə olmaq istəməmişəm. Müəllimliyim ilə önə çıxmaq, insanların məni daha çox müəllim kimi tanımalarını istəmişəm".





Tanınıb da... Buna görə öz müəllimlərinə minnətdardır: "Müəllim necə olur, bunu müəllimlərimdə gördüm. Ömrüm boyu məhz onlar kimi müəllim olmaq istədim. Bu gün də onların məzarlarını ziyarət edir, öz borcumu yerinə yetirməyə çalışıram. Ən böyük minnətdarlığım mənə bu məktəbdə dərs demiş riyaziyyat müəllimim Mikayıl Allahverdiyevə, ədəbiyyat müəllimim Gülarə Əşrəfovayadır. Yaxşı müəllim ola bildiyim üçün onlara borcluyam".

Valeh müəllim özü də daim axtarılan müəllimlərdəndir. Özünü də şagirdləri hörmət, sevgi ilə arayır: "Keçmiş şagirdlərim də məni unutmur. Bayramlarda yada salan, zəng edən çox olur. Müəllimlərim kimi unudulmayan müəllim olmağı bacardım".

**Yenidən dərsə girəcək...**

Tezliklə dərslər başlayacaq. Sentyabr ayından Valeh Əsgərov yenidən dərsə girəcək. Ancaq...

Valeh Əsgərovun bu il sentyabrın 25-də 65 yaşı tamam olur: "Növbəti dərs ilində də şagirdlərimlə bərabərəm. Həm 65 yaşım tədris ilinin ortasında tamam olduğu üçün, həm də fəxri adlarıma görə tədris ilinin sonunadək dərslərimi davam etdirəcəyəm".

**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycan müəllimi.- 2023.- 1 sentyabr.- S.5.